**AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI (çıxarış)**

**Maddə 39.** Sağlam ətraf mühitdə yaşamaq hüququ

1.Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.



## SAĞLAM ƏTRAF MÜHİTDƏ YAŞAYAQ!

Buklet Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir. Bukletin hazırlanmasında Ümumdünya Səhiyyə Təşkilatının materiallarından istifadə olunmuşdur.

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Bakı, AZ1122, H. Zərdabi küç., 96

Tel: 431-60-88, Faks: 430-52-85

office@isim.az www.isim.az

# XƏSTƏLİKLƏRİN PROFİLAKTİKASI ÜÇÜN SAĞLAM ƏTRAF MÜHİT HAQQINDA 10 FAKT



**Sağlam olmayan ətraf mühit xəstəliklərin 25%-nə səbəb olur**

## FAKT 1

Ətraf mühitin sağlamlaşdırılması nəticəsində bütün dünyada hər il baş verən 13 milyon ölüm hadisəsinin qarşısını almaq mümkündür.

## FAKT 2

Beş yaşadək uşaqlar arasında bütün xəstəliklərin 1/3-nə təhlükəli su və çirklənmiş hava kimi ətraf mühit amilləri səbəb olur.

## FAKT 3

Təhlükəli su və çirklənmiş hava kimi ətraf mühit amillərinin təsirinin qarşısını almaqla inkişaf etməkdə olan ölkələrdə hər il beş yaşadək 4 milyon uşağın həyatını xilas etmək mümkündür.

## FAKT 4

İnkişaf etməkdə olan ölkələrdə ətraf mühit amilləri nəticəsində əmələ gələn əsas xəstəliklər diareya xəstəlikləri, aşağı tənəffüs yollarının infeksiyaları, təsadüfi zədələr və malyariyadır.

## FAKT 5

Ətraf mühitdən daha səmərəli istifadə nəticəsində malyariyadan baş verən ölüm hallarının 40%-nin, aşağı tənəffüs yollarının infeksiyalarından baş verən ölüm hallarının 41%-nin, diareya xəstəliklərindən baş verən ölüm hallarının isə 94%-nin – dünyada uşaq ölümünün bu 3 əsas səbəbinin qarşısını almaq mümkündür.












## FAKT 6

Az inkişaf etmiş ölkələrdə ölüm hadisələrinin və xəstəliklərin 1/3-nin bilavasitə səbəbini ətraf mühit amilləri təşkil edir.

## FAKT 7

İnkişaf etmiş ölkələrdə ətraf mühitin sağlamlaşdırılması nəticəsində xərçəng və ürək-damar xəstəlikləri, bronxial astma halları, aşağı tənəffüs yollarının infeksiyaları, dayaq-hərəkət aparatı xəstəlikləri, yol-nəqliyyat hadisələri zamanı yaranan zədələr, zəhərlənmələr və boğulmaların sayını azaltmaq mümkündür.

## FAKT 8

Ətraf mühit amilləri “Dünyada səhiyyənin vəziyyəti barədə məruzə”də qeyd edilən 102 xəstəlik və zədədən 85-nə təsir edir.

## FAKT 9

Bu ölüm, xəstəlik və əlillik hallarının əksəriyyətinin ev şəraitində suyun təhlükəsiz saxlanılmasına yardım, gigiyena tədbirlərinin yaxşılaşdırılması və yanacağın daha təmiz və təhlükəsiz növlərindən istifadə kimi məqsədyönlü tədbirlərin köməyi ilə qarşısını almaq mümkündür.

## FAKT 10

Ətraf mühitin sağlamlaşdırılmasına kömək edə biləcək digər tədbirlərə binaların təhlükəsizlik səviyyəsinin artırılması, işdə və evdə toksik maddələrin təhlükəsiz və diqqətli istifadəsi və idarə olunmasına yardım, həmçinin su ehtiyatlarının daha səmərəli idarə olunması daxildir.